**UOT 004.738.5:351** DOI: 10.25045/jpis.v09.i2.03

***Mahmudov R.Ş.***
AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
depart17@iit.ab.az

# BİG DATA ERASINDA FƏRDİ MƏLUMATLARIN HÜQUQİ REJİMİNİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

*Big Data texnologiyalarının inkişaf etdiyi və iqtisadi əhəmiyyətinin artdığı müasir dövrdə fərdi məlumatların hüquqi rejiminin müəyyən edilməsinə yeni yanaşma tələb edilir. Mövcud situasiya Big Data-nın iqtisadi potensialından maksimum faydalanmaqla yanaşı, insanların şəxsi həyatının etibarlı mühafizəsini təmin etmək üçün optimal, balanslaşdırılmış həll yollarını tələb edir. Məqalədə Big Data erasında fərdi məlumatların toplanması və emalı ilə bağlı hüquq normalarının təkmilləşdirilməsi zərurəti əsaslandırılır. Fərdi məlumatlara mülkiyyət hüququnun tanınması probleminin aktuallığına diqqət çəkilir. İnsanların özəl həyatı ilə bağlı məlumatların şəxssizləşdirilməsi, onların emalının legitimləşdirilməsi və məhdudlaşdırılması ilə bağlı hüquqi konsepsiyalarla Big Data texnologiyalarının tətbiqi konsepsiyaları arasındakı ziddiyyətlər şərh olunur.*

***Açar sözlər:*** *Big Data texnologiyaları, fərdi məlumatlar, fərdi məlumatların şəxssizləşdirilməsi, məlumatların emalının legitimləşdirilməsi, məlumatların emalının məhdudlaşdırılması.*

## Giriş

Müasir dövrdə bir çox fəaliyyət sahələrində müvəffəqiyyət qazanmağın əsas amillərindən biri böyük həcmdə verilənlər kütləsini və informasiya axınlarını emal etmək imkanı ilə bağlıdır. Verilənləri analiz etməklə yeni xidmətlər və məhsullar yaratmaq, biznesi optimallaşdırmaq, bununla da, yeni gəlir mənbələri əldə etmək, mövcud gəlirləri artıqmaq olar. Big Data texnologiyalarının timsalında çox böyük həcmdə informasiyanı toplamaq, emal etmək, saxlamaq və analiz etmək üçün yeni, unikal bir vasitə meydana çıxıb.

Lakin Big Data-nın mühüm üstünlükləri ilə yanaşı, bir sıra problemləri də mövcuddur. Xüsusilə, müvafiq texnologiyalardan istifadə ilə bağlı bir sıra hüquqi problemlər meydana çıxır. O cümlədən intellektual mülkiyyət hüquqlarının qorunması, böyük verilənlərlə işləmək üçün lisenziyalaşdırma və müqavilələrin bağlanması, verilənlərin əlyetərliliyi və onlardan istifadə, şəxsi həyatın toxunulmazlığı ilə bağlı problemlər elmi aktuallıq kəsb edir.

Big Data ilə bağlı etimad, diskriminasiya, əlyetərliliyin qeyri-bərabərliyi, konfidensiallıq, istismar və manipulyasiya kimi bir sıra sosial və etik məsələlər böyük narahatlıqlar doğurur. Bu məsələlər Big Data obyekti olan məlumatların əsas sosial və etik dəyərlər sırasına aid edilməsinin qəbul olunmasını tələb edir.

Eyni zamanda, fərdi məlumatların qorunmasını nəzərdə tutan bir sıra hüquq normaları Big Data texnologiyalarının effektiv tətbiqi ilə bağlı problemlər yaradır. Bundan başqa, müvafiq hüquq sistemi sürətlə inkişaf edən informasiya texnologiyalarının artan imkanlarına adekvat reaksiya verə bilmir.

## Fərdi məlumatların toplanması və emalı ilə bağlı problemlər

Müasir informasiya texnologiyaları şəxsi həyat anlayışı ilə bağlı təsəvvürlərdə əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Gerçək dünyada baş verən hadisə və proseslər - əmtəə və xidmətlərin əldə edilməsi, yaxın adamlarla ünsiyyət, dövlət orqanları ilə qarşılıqlı əlaqə və s. virtual mühitə keçərək bir qədər fərqli mahiyyət daşımağa başladı. Bunun nəticəsində insanların bilərəkdən, yaxud bilməyərəkdən açıqladığı və müxtəlif təşkilatların hədəfinə çevrilən fərdi məlumatlar misli görünməmiş miqyas aldı.

Xüsusilə, İnternet kütləvi sosial hadisəyə, cəmiyyət həyatının ayrılmaz hissəsinə çevrildikdən sonra insanlar bu texnologiyanın onların şəxsi həyatına təsirindən ehtiyat etməyə

başladılar. Bu gün insanlar narahatdırlar ki, onların sağlamlığı, maliyyə vəziyyəti, şəxsi münasibətləri, siyasi baxışları və s. ilə bağlı kimlərdəsə məlumatlar toplanır.

Amerika alimi R.Posner hesab edir ki, insanlar fərdi məlumatlarının tanımadıqları adamın əlinə keçməsini, başqalarının onları çılpaq vəziyyətdə görməsi situasiyası ilə eyniləşdirirlər [1].

Vətəndaşların narahatlığına səbəb olan fərdi məlumatlardan istifadə daha çox özəl sektorda müşahidə olunur. Lakin dövlət orqanları da fərdi məlumatları toplayır, mühafizə edir və müəyyən məqsədlər üçün analiz edərək nəticələrini tətbiq edir. Fərdi məlumatlardan istifadə zamanı şəxsi həyatın uğurla qorunması modeli hüquq sisteminə olan etimadla bağlıdır.

Əgər bu şərt ödənilərsə, şəxsi həyatın qorunması modeli yalnız qanunun aliliyini möhkəmləndirər və dövlətin məsuliyyətini artırar. Əgər tənzimləyicilər yalnız fərdi məlumatların toplanması ilə deyil, həm də onların istifadəsi ilə bağlı vətəndaşların qanuni mənafelərinin qorunmasına səy göstərərlərsə, onda insanlar daha arxayın olarlar.

Lakin bu narahatlıqlar texnoloji prosesləri əngəlləmək iqtidarında deyil. Hazırda fərdi məlumatların kütləvi şəkildə toplanması və saxlanması qaçılmazdır. Bu gün insanlar şüurlu şəkildə bir çox təşkilatlara, o cümlədən dövlət orqanlarına, İnternet-provayderlərə, səhiyyə müəssisələrinə, telekommunikasiya şirkətlərinə, maliyyə qurumlarına böyük həcmdə informasiya verirlər. İndi insan fəaliyyətinin elə bir sahəsini təsəvvür etmək olmaz ki, orada fərdi məlumatlar lazımsız məhsul kimi zibil qutusuna atılsın. İnsanlar bilmirlər ki, onların məlumatları harada və necə saxlanılır, onlardan nə üçün istifadə edilir. Hər gün fərdi məlumatları analiz etmək və müəyyən nəticələr almaq üçün daha güclü prosessorlar və serverlər meydana gəlir [2].

Hazırki qanun və normalar, əsasən, fərdi məlumatların toplanması və mühafizəsinə nəzarət edilməsinə yönəlib. Amma həmin məlumatlardan necə istifadə edilməsi məsələsinə diqqət yetirilmir.

Microsoft şirkətinin tədqiqat və strategiya üzrə keçmiş direktoru Kreyq Mandi hesab edir ki, fərdi məlumatlardan qanunsuz istifadə ağır cinayət əməli kimi dəyərləndirilməlidir [3].

Gartner analitik şirkətinin proqnozuna görə, işgüzar etikanın pozulması hallarının yarıya qədəri məhz Big Data analizi nəticəsində əldə edilən informasiyanın düzgün istifadə edilməməsi ilə bağlı olacaq. Bunun nəticəsində müvafiq müəssisələr reputasiyalarını, resurslarını, rəqabət qabiliyyətlərini itirə və hüquqi sanksiyalara məruz qala bilərlər [4].

Fərdi məlumatların qorunması ilə bağlı əsas problemlərdən biri odur ki, yaxın keçmişdə müvafiq məlumatların toplanması əlavə zəhmət tələb edirdi. İndi isə istifadəçilərin İnternetlə və digər kommunikasiya qurğuları ilə qarşılıqlı əlaqə prosesinin özü informasiyanı meydana çıxarır. Ona görə də şəxsi həyatın qorunmasının mövcud metodları artıq öz effektivliyini itirib və yeni metodlar işləyib hazırlamaq zərurəti yaranıb.

Almaniyanın məşhur SAP şirkətinin yaradıcılarından olan Hasso Plattner hesab edir ki, hakimiyyət orqanları vətəndaşların şəxsi həyat sirrinin mühafizəsini və insanlar haqqında informasiyanın toplanması və emalı üzrə ən müasir texniki imkanları nəzərə alan yeni qaydalar işləyib hazırlamalıdırlar. Onun fikrincə, Big Data-nın üstünlükləri mənfi tərəflərindən daha çoxdur. Ona görə də bu qənaətə gəlir ki, fərdi məlumatların mühafizəsi təmin edilməlidir, amma bu, Big Data texnologiyalarının tətbiqinin məhdudlaşdırılması hesabına olmamalıdır [5].

2014-cü ilin oktyabrında Mavriki adasında məlumatların və şəxsi həyatın qorunması məsələləri ilə bağlı beynəlxalq konfrans keçirilmişdir [6]. Konfransın məqsədi Big Data-nın və Əşyaların İnternetinin insanların gündəlik həyatına müsbət və mənfi təsirlərini müzakirə etmək, məlumatların toplanması və istifadəsi ilə bağlı risklərin azaldılması üçün prinsiplərin müəyyən edilməsi və tövsiyələrin hazırlanması idi.

Konfransda bəyan olunmuşdur ki, Əşyaların İnterneti qurğuları Big Data ilə birlikdə insan həyatını asanlaşdırır, amma bu texnologiyaların vətəndaşların şəxsi həyatına müdaxiləsi və onların hüquqlarının pozulaması ilə bağlı böyük təhlükələri mövcuddur.

Konfransın yekun bəyannaməsində Big Data istifadəçilərinə aşağıdakılar tövsiyə olunur:

- hansı məlumatların toplandığı, onların necə emal olunduğu, hansı məqsədlər üçün istifadə ediləcəyi, üçüncü şəxslərə verilib-verilməyəcəyi ilə bağlı məsələlər şəffaf olmalıdır;

- informasiyanın toplanmasının məqsədi bilavasitə onu toplayan zaman müəyyən olunmalıdır və informasiyanın təyin olunmuş məqsəddən kənar istifadəsi istisna edilməlidir;
- informasiyadan istifadə üçün razılıq alınmalıdır;
- informasiya qeyd olunan qanuni məqsədlərin reallaşdırılması üçün zəruri olan həcmdə toplanmalı və saxlanmalıdır;
- fərdi məlumatları əldə edilən şəxslər onlardan necə istifadə olunduğu barədə məlumatlandırılmalıdır;
- insanlara öz informasiyasına düzəliş etmək və onu idarə etməyə imkan yaradılmalıdır;
- informasiyanın toplanmasının insanların şəxsi həyatına necə təsir etdiyi analiz edilməlidir.

**Fərdi məlumatlara müəllif hüququnun tanınması problemləri**

Virtual dünyada insanların gündəlik həyatını əks etdirən informasiya bu gün tədqiqat üçün faydalı resurs hesab olunur. Öz növbəsində, hüquq normaları ilə bağlı daim çətinliklər meydana çıxır. Çünki bu tip informasiyanın onu generasiya edənə, təqdim edənə, toplayana, analiz edənə, zənginləşdirənə, satın alana, yaxud bütövlükdə cəmiyyətə məxsus olması hüquqi baxımdan öz həllini tapmayıb. Problemi daha da çətinləşdirən odur ki, informasiyaya eyni zamanda həm mülkiyyət, həm də bu və ya digər qanundan asılı olmayan müstəqil məlumat kimi baxıla bilər [7].

İnformasiyanın müasir texnologiyaların inkişafı ilə əlaqədar meydana çıxan yeni növləri mülkiyyət haqqında ənənəvi qanunvericilikdə öz hüquqi statusunu almayıb, amma müəssisələrdə və ya inzibati orqanlarda generasiya olunur və mühafizə edilir. Belə bir vəziyyət, təbii ki, hüquqi baxımdan bir sıra problemlər yarada bilər. Ona görə də qanunvericilik sisteminin bu cür texnoloji yeniliklərə adekvat reaksiya verməsi zəruridir.

**Fərdi məlumatların şəxssizləşdirilməsi problemləri**

Fərdi məlumatların şəxssizləşdirilməsi onların vətəndaşlara vurula biləcək ziyan riskinin minimallaşdırılması üsullarından biridir. Bu üsul insanın şəxsiyyətinin avtonomluğunu təmin etməklə mühüm sosial funksiyanı yerinə yetirir [8]. Bu üsul əlavə informasiya olmadan fərdi məlumatın kimə aid olduğunu müəyyən etməyin qarşısını alır. İnformasiyanın şəxssizləşdirilməsi metodları arasında aşağıdakıları qeyd etmək olar [9]:

– identifikatorların tətbiq edilməsi;
– tərkibin və ya semantikanın dəyişdirilməsi;
– dekompozisiya;
– qarışdırma;
– və s.

Konkret metod fərdi məlumatların emalının məqsəd və vəzifələrindən asılı olaraq seçilir. Bu zaman nəzərə alınır ki, fərdi məlumatların şəxssizləşdirilməsi təkcə onlardan qanunsuz istifadənin qarşısını almalı deyil, həm də onların emalını təmin etməlidir.

Lakin Big Data erasında bir neçə informasiya fraqmenti arasında korrelyasiyanın müəyən edilməsi vasitəsi ilə şəxsiyyətin identifikasiya edilməsinin mümkünlüyü həmin üsulun effektivliyini şübhə altına alır. Başqa sözlə, informasiyanın şəxssizləşdirilməsi artıq yeni texnoloji reallıqda şəxsi həyatı qorumaq iqtidarında deyil [10].

İnternetin meydana gəlməsi ilə bu cür identifikasiya daha da asanlaşmışdır. Çünki hər bir İnternet istifadəçisi onu identifikasiya etmək üçün kifayət qədər “rəqəmsal iz” buraxır. Belə bir sual da ortaya çıxır ki, şəxssizləşdirilmiş məlumatlar fərdi məlumat kateqoriyasına daxil edilir, yoxsa fərdi məlumat rejiminin tətbiq edilmədiyi xüsusi məlumat növünə aid edilir? Avropa Şurasının fərdi məlumatlar üzrə işçi qrupu belə bir nəticəyə gəlib ki, əgər şəxssizləşdirilmiş məlumatlar ilkin vəziyyətinə dönmə qabiliyyətinə malikdirsə, onda fərdi məlumatlara aid edilməlidir. Nəzərə almaq lazımdır ki, yuxarıda göstərilən şəxssizləşdirmə metodlarının əksəriyyəti məhz dönmə qabiliyyətinə malikdir [8].

**Fərdi məlumatların emalının legitimləşdirilməsi problemləri**

Fərdi məlumatlarla bağlı hüquqi tənzimləmənin ideal modeli nəzərdə tutur ki, fərdi məlumatların subyekti onun informasiya sferasına (informasiyanın emalı, müvafiq risk və faydalarına dair müstəqil qərar qəbul etmək imkanına malikdir. Bununla bağlı fərdi məlumatların subyektinin razılığı onların emalı üçün hüquqi əsas sayılır. Fərdi məlumat subyektinin razılığının informativliyə, konkretliyə, şüurluluğa əsaslanması üçün ona fərdi məlumatlarının necə istifadə ediləcəyi: istifadənin məqsədi, əldə edilən məlumatların tərkibi və onların emal üsulları barədə ətraflı informasiya verilməlidir [11].

Lakin Big Data erasında fərdi məlumatların emalına dair məlumatlandırma razılığı aşağıdakı bir sıra səbəblərə görə öz effektivliyini əhəmiyyətli dərəcədə itirir [2]:

- fərdi məlumatların mümkün üsulları və emal məqsədləri haqqında müfəssəl məlumatların verilməsinin qeyri-mümkünlüyü;
- fərdi məlumat subyektinin bu cür informasiyanı adekvat şəkildə qavramasının qeyri-mümkünlüyü;
- müasir cəmiyyətdə fərdi məlumatların toplanması və emalı ilə məşğul olan böyük sayda qurumlarla fərdi qaydada qarşılıqlı əlaqə qurmağın qeyri-mümkünlüyü.

Beləliklə, məlumatlandırma razılığı fərdi məlumat subyektinin həmin məlumatların emalının ilkin mərhələsində bir sıra qərarlar qəbul etməsinin zəruriliyini nəzərdə tutur. Amma Big Data texnologiyalarının tətbiqinin xüsusiyyətləri bu cür qərarların nəticələrin; əvvəlcədən müəyyən etməyə imkan vermir. Ona görə də hesab etmək olar ki, məlumatlandırma razılaşması müasir şəraitdə fərdi məlumatların emalının legitimləşdirilməsi üçün hüquqi əsas sayıla bilməz.

**Fərdi məlumatların emalının məhdudlaşdırılması problemləri**

Fərdi məlumatların toplanması və emalının müəyyənliyi prinsipi şəxsin özü haqqında məhdud informasiya vermə hüququnun əsaslarından biridir. Big Data erasında isə məlumatların təkrar emalına üstünlük verilir. Belə ki, istisnasız olaraq bütün məlumatlar potensial dəyərə malikdir. Bu, eyni dərəcədə həm texniki, həm fərdi, həm də potensial olaraq fərdi məlumat kimi təsnifatlandırıla biləcək məlumatlara aiddir. Məsələn, müştərilərin alış-verişindən əldə edilən məlumatlar həm ünvanlı reklam göndərişi, həm bazarın tədqiqi, həm də müştərinin statusuna dair proqnozların hazırlanması üçün faydalıdır. Hər hansı şirkətdə nə qədər çox məlumat olarsa, Big Data texnologiyalarının tətbiqi üçün bir o qədər geniş meydan olar [11].

Big Data-nı okeandakı aysberqlə müqayisə etmək olar. Yəni ilk baxışda onun yalnız az bir hissəsini görmək mümkündür. İnnovasiya şirkətləri Big Data-nın görünməyən tərəflərini aşkara çıxarmaqla böyük faydalar əldə edirlər. O cümlədən müxtəlif məlumat bazalarını birləşdirməklə əlavə nəticələr qazanırlar.

Müasir texnologiyalar həmçinin fərdi məlumatların toplanması ilə bağlı olan bir sıra texniki məhdudiyyətləri aradan qaldırmaq iqtidarındadır. Belə ki, nəhəng informasiya massivlərinin saxlanmasının əhəmiyyətli dərəcədə ucuzlaşması əvvəlcədən müəyyən edilmiş məqsədlərlə fərdi məlumatların emalının məhdudlaşdırılması prinsipindən imtina etməyi stimullaşdırır [12].

Beləliklə, Big Data erasında müvafiq şirkətlər mümkün qədər daha çox məlumat toplamaqda maraqlıdır. Sözsüz ki, bu məlumatların arasında fərdi məlumatlar da mühüm yer tutacaq. Bu səbəbdən də fərdi məlumatların emalı ilə bağlı milli qanunvericiliklərdəki mövcud məhdudiyyətlər, həmçinin müxtəlif məlumat bazalarının əvvəlcədən bəyan olunmuş bazalarla birləşdirilməsinin yolverilməzliyi və əvvəlcədən bəyan olunmuş emal məqsədlərinə uyğun olmaması müasir texnologiyaların mahiyyəti və biznes praktikası ilə ziddiyyət təşkil edir. Ona görə də Big Data erasında qanunvericiliyin müvafiq tələblərinə əməl etmək çox çətindir.

**Nəticə**

İnsanların etimadını qazanmaq, narahatlığına son qoymaq üçün fərdi məlumatların toplanması siyasəti şəffaf olmalıdır. Onlar informasiyanın hansı məqsədlə, necə toplandığını, nə cür istifadə edildiyini bilməlidirlər. Həmçinin insanlar özləri onlar haqqında toplanan və emal olunan informasiyadan istifadə etmək imkanı ilə təmin edilməlidirlər. Eyni zamanda, fərdi məlumatların qorunması ilə bağlı bir sıra mövcud hüquq normaları Big Data texnologiyalarının effektiv tətbiqində problemlər yaradır. Ona görə də bu texnologiyaların faydalarını nəzərə alaraq, qanunvericilik səviyyəsində şəxsi təhlükəsizliklə ictimai maraqlar arasında həssas balans yaratmaq lazımdır.

**Ədəbiyyat**


1. Tene O., Polonetsky J. Big Data for All: Privacy and User Control in the Age of Analytics // Northwestern Journal of Technology and Intellectual Property, 2013, Volume 11, Issue 5, http://www.scholarlycommons.law.northwestern.edu
2. Bygrave L. Data Privacy Law: An International Perspective. Oxford University Press, 2014. 233 p.
3. Mundie C. Privacy Pragmatism. Focus on Data Use, Not Data Collection // Essay, 2014, Vol. 93, No. 2, pp. 28-34.
4. Gartner. Data & Analytics, http://www.gartner.com/technology/topics/big-data.jsp
5. SAP HANA Blog, http://www.blogs.saphana.com/2015/09/29/hasso-plattner-blog
6. Big Data Unlocks Key to Age Old Challenges Businesses Face, http://www.smartdatacollective.com
7. Джапек Л., Крёйтер Ф., Берг М. и др. Отчёт AAPOR о больших данных. Американская ассоциация исследователей общественного мнения, Пер. с англ. М., 2015, 72 с.
8. Nissenbaum H. A Contextual Approach to Privacy Online // Daedalus, 2011, no. 4, pp.32–48.
9. Жаринов Р., Трифонова Ю. Возможности обезличивания персональных данных в системах, использующих реляционные базы данных // Управление, вычислительная техника и информатика, 2014, № 2 (32), с. 188–194.
10. Ohm P. Broken Promises of Privacy: Responding to the Surprising Failure of Anonymization // UCLA Law Review, 2010, no. 57, pp.1701– 1777.
11. Бачило И.Л., Сергиенко Л.А., Кристальный Б.В., Арешев А.Г. Персональные данные в структуре информационных ресурсов. Основы правового регулирования, Минск: Беллитфонд, 2006. 474 с.
12. Lane J., Stodden V., Bender S., Nissenbaum H. Privacy, Big Data and the Public Good: Frameworks for Engagement, Cambridge University Press, 2014, 344 p.

**УДК 004.738.5:351**

**Махмудов Расим Ш.**
Институт Информационных Технологий НАНА, Баку, Азербайджан
depart17@iit.ab.az

**Проблемы определения правового режима персональных данных в эпоху Big Data**

В современный период развития технологий Big Data и роста их экономической значимости требуется новый подход к определению правового режима персональных данных. Сложившаяся ситуация совместно с максимальной выгодой от экономического потенциала Big Data требует оптимальных, сбалансированных путей решения для обеспечения безопасности личной жизни людей. В статье обосновывается необходимость совершенствования правовых норм, связанных со сбором и обработкой персональных данных, в эпоху Big Data. Уделяется внимание актуальности проблемы признания права собственности на персональные данные. Проанализированы противоречия между прикладными концепциями технологий Big Data с правовыми концепциями, связанными с обезличиванием данных о частной жизни людей, легитимацией и ограничением их обработки.

***Ключевые слова:*** *технологии Big Data, персональные данные, обезличивание персональных данных, легитимация обработки данных, ограничение обработки данных.*

**Rasim Sh. Mahmudov**
Institute of Information Technology of ANAS, Baku, Azerbaijan
depart17@iit.ab.az

**The problems of determining the legal regime of personal data in the era of Big Data**

In the modern period of the development of Big Data technologies and the growth of their economic importance, a new approach to determining the legal regime of personal data is required. The current situation, together with the maximum benefit from the economic potential of Big Data, requires optimal, balanced solutions to ensure the safety of people's personal lives. The article substantiates the need to improve the legal norms related to the collection and processing of personal data in the era of Big Data. Attention is paid to the relevance of the problem of recognition of ownership of personal data. The contradictions between the applied concepts of Big Data technologies with legal concepts related to the depersonalization of data on the private life of people, legitimation and restriction of their processing are analyzed.

***Keywords:*** *Big Data technologies, personal data, depersonalization of personal data, legitimization of data processing, limitation of data processing.*